# QARABAĞ AZƏRBAYCANDIR!

# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №14 (7485) | 10 oktyabr 2020-ci il | Şənbə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


# İlham Əliyev: "Vətən müharibəsində zəfər bizimlədir!"



## Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir.

*İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı*

## Şirvanlılar da ölkə Prezidentinə, ordumuza arxa, dayaqdırlar

**"Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".**



# Fransa prezidentinin "təşəbbüsləri" nəticəsiz qalacaq



**Terroru, soyqırımı tarix boyu siyasətinin əsas xətti olduğunu sübut edən işğalçı Ermənistan ölkəmizə qarşı təxribat hücumlarını yeniləməkdə davam edir. Beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı dövlət olduğunu tam şəkildə sübuta yetirilməsinə baxmayaraq havadarlarına güvənən bu bədnam ölkə işğalçılıq siyasətini yürütməklə, özünü necə rəzil duruma saldığını açıq-aydın nümayiş etdirir.**

Ermənistan işğalçı, təcavüzkar siyasəti ilə bir daha sübut etdi ki, regionda sülh və sabitliyin önündə ən böyük əngəldir. İndi dünya birmənalı şəkildə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını qəbul edir, beynəlxalq hüquq normalarına uyğun olaraq onu işğal altında saxladığı əraziləri azad etməyə çağırır.

Dünya birliyinin Ermənistanı işğalçı dövlət qismində qəbul etdiyi bir vaxtda, iki ölkə arasında münaqişənin ağır və məsuliyyətli dönəmində münaqişənin nizamlanması prosesinə birbaşa məsuliyyət daşıyan ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən olan Fransanın tutduğu mövqe anlaşılan deyil.

ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi Fransanın proseslərdə tutduğu mövqeyi, verdiyi bəyanatlar bu ölkənin münaqişənin nizamlanması prosesindəki beynəlxalq mandatına ziddir və neytral vasitəçilik missiyasının tələblərinin kobudcasına pozulmasıdır. Fransa prezidenti Emmanuel Makronun bəyanatları ilə işğalçılıq, təcavüzkarlıq siyasəti yürüdən, 1 milyondan artıq soydaşımızı dədə-baba yurdundan didərgin salan, mülki vətəndaşlarımızı qətlə yetirən ölkəyə dəstək verməsi olduqca təəssüf ediləcək məqamdır. İşğalçının, haqsızın yanında dayanan Fransa Prezidenti Qarabağın yenidən "ələ keçirilməsini" qəbul etməyəcəyini deyir. Fransa kimi ölkənin başçısının hələ də Azərbaycanın əzəli-əbədi torpaqları olan Qarabağı işğalçı ermənilərin ərazisi kimi tanıması qəbuledilməzdir. Makronun dilindən belə sərsəm fikirlərin səslənməsi isə Fransa-Azərbaycan münasibətlərinə ciddi zərbədir.

Məlumdur ki, vasitəçilik missiyasını üzərinə götürən bir ölkə münaqişə tərəflərindən birinə açıq və birmənalı dəstək verə bilməz. Məsuliyyətli missiyanı öz üzərinə götürən dövlət ən azı işğala məruz qalan dövləti işğalçıdan ayırmağı bacarmalı, münaqişənin həllində çalışmalıdır. Fransa isə nə edir? İşğalçı ölkənin yanında yer alır, hətta bəyanat verir. Makronun Latviyanın paytaxtı Riqada səsləndirdiyi "Fransa Türkiyənin savaşkar bəyanatından olduqca narahatdır, bu bəyanat Azərbaycan üzərindən məsuliyyəti götürür və Şimali Qarabağı (dediyi kimi) yenidən fəth etməyə imkan verir" deməsi, Makronun nəinki ədalətli vasitəçi, həm də münaqişənin detalları və tarixi haqqında xəbərdar olmasına şübhə yaradır.

İşğalçının yanında olan, ədaləti, haqqı görmək istəməyən ölkənin ATƏT-in Minsk qrupunun tərkibində olması da sual doğurur. ATƏT-in Minsk qrupunun tərkibi dəyişdirilməli, siyasi mənafelərini erməni lobbisindən güc alan ölkə bu təşkilatdan kənarlaşdırılmalıdır.

**Fərzəli Hüseynli,**
**Şirvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı**

# İlham Əliyev: "Bizim işimiz haqq işidir!"

Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bildirib.

"Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür" - sözləri ilə müalicə olunan hərbçilərə müraciət edən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev onların diqqətinə çatdırıb ki, dövlət sizin yanınızda olacaq və sizin tezliklə burada sağalıb normal həyata qayıtmağınız üçün həkimlər əllərindən gələni edirlər və edəcəklər.

Xüsusi vurğulamaq lazımdır ki, yaralanan əsgərlərlə görüşü zamanı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanıma Əliyevanın kövrəlməsi və göz yaşları ana ürəyinin və qadın mərhəmətinin təcəssümüdür. Səmimi hisslər və dərdlərin bölüşməsi xalqımıza məxsus olan ülvi xüsusiyyətdir.

Görüşdə - "Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik" - deyən cənab İlham Əliyev bir daha erməni xalqının diqqətinə çatdırıb ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti!

Daha sonra cənab Prezident xüsusi vurğulayıb ki, bizim erməni xalqı ilə işimiz yoxdur. Azərbaycan çoxmillətli dövlətdir və burada bir çox millətlər sülh, əmin-amanlıq şəraitində yaşayır, o cümlədən erməni xalqı.

**(Davamı 2-ci səhifədə)**

# Şirvanlılar da ölkə Prezidentinə, ordumuza arxa, dayaqdırlar

## Vətənin keşiyində duran əsgər kimi qürurluyam!



**Azərbaycanlıyam. Necə də qürurlu səslənir bu söz. Bu hissi yaşayan hər kəs xoşbəxtdir. Xoşbəxtdir ki, doğma yurdu, müstəqil dövləti var. Bizə oğul deyən Vətənimiz, lazım gələrsə uğrunda canımızı sevə-sevə qurban verəcəyimiz müqəddəs torpaqlarımız var. Daim fəxr ediləcək keçmişimiz, çiçəklənən bu günümüz, parlaq gələcəyimiz var. Vətənimiz də xoşbəxtdir ki, ona ürəkdən bağlı xalqı var. Onu yağılardan qoruyan güclü ordusu var. Tabor komandiri Əlyar Əliyev, Xocalının müdafiəçisi Əlif Hacıyev, Tərtər rayonunu son nəfəsinə kimi müdafiə edən Vəzir Orucov kimi qəhrəmanları olub. Əsgərlərimiz bu qəhrəmanları özünə örnək bilir. Bu gün bu qəhrəmanların sayı artır.**

Azərbaycan Prezidenti, cənab Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-dən başlayan Ermənistanın hərbi təxribatı zamanı yaralanan və Mərkəzi Hərbi Klinik Hospitalda müalicə alan hərbçilərimizlə görüşüb.

Bu görüşdə Mehriban xanımın göz yaşları axıtdığını hiss etməmək mümkün deyildi. Bu onu göstərir ki, ölkənin birinci xanımı əsgərlərimizə həssaslıqla yanaşır. Həqiqətən də yaralanan əsgərin yarası hər bir azərbaycanlının yarasıdır. Ölkə başçısı və birinci xanım əmindilər ki, Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər alan əsgərlərə həkimlər yaxşı baxacaq, əllərindən gələni edəcək və gənclərimiz öz əsgər yoldaşlarının yanına qayıdıb, mübarizələrini davam etdirəcəklər. Dövlətinin qayğısını görən əsgərlər bilirlər ki, tək deyillər və arxada qoyduqları ailələri də daim diqqətdə olacaq.

Prezidentimiz də şəhid ailələri ilə bağlı çıxışlarında həmişə bildirir ki, Qarabağ müharibəsində həlak olmuş qəhrəman övladlarımızın ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunacaqdır. Dövlətimiz sözdə deyil, əməldə də göstərir ki, hər zaman öz əsgərinin, şəhidinin ailəsinin yanındadır və həmişə də yanında olacaq.

Bizim əsgərlərimiz isə xilaskar əsgərlərdir. Bizim əsgərlər heç bir ölkənin torpaqlarına göz dikmir. Bizim əsgərlər öz torpaqlarının uğrunda əks hücumlara başlayıb. Çox keçməz ki, ordumuz torpaqlarımızı işğaldan azad edib, Azərbaycan bayrağını o yerlərdə dalğalandıracaq. Yaşasın Azərbaycan, yaşasın dövlətimiz, var olsun müzəffər ordumuz.

Şəhid olan hərbçilərimizə Allahdan rəhmət diləyir, ordumuza yeni-yeni uğurlar arzulayıram. Biz Qarabağ əlilləri və veteranları hər an əldə silah Vətənin müdafiəçilərinin sırasına qoşulmağa hazırıq. Ən böyük arzumuz budur ki, Silahlı Qüvvələrimiz bu günlər ərzində qazanılan uğurları davam etdirsinlər. Hamımız elliklə Vətən müharibəsinə qalxaq, torpaqlarımızı bu uzunsürən işğaldan azad edək, mənfur düşməni qovub ölkəmizdən çıxaraq. Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusunun və bütün Azərbaycan xalqının bu azadlıq müharibəsinin zəfərlə başa çatacağına, nəyin bahasına olursa-olsun torpaqlarımızın azad ediləcəyinə, ölkəmizin ərazi bütövlüyünün təmin olunacağına dərindən inanırıq. Tarixi haqqımız olsa da, bizim düşmən torpaqlarında gözümüz yoxdur, beynəlxalq hüququn tanıdığı öz torpaqlarımıza sahib olub dövlətimizin suveren haqqını təmin etməliyik. Əminik ki, çətin sınaqlardan keçmiş, həlledici anlarda həmişə coşqu ilə təzahür etmiş dövlət və xalq birliyimiz sayəsində buna nail olacağıq. Bu Vətən müharibəsində möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla, Şanlı Ordumuza qarşıdakı müqəddəs xilaskarlıq vəzifəsində zəfərlər, xalqımıza qələbə sevinci arzulayırıq!

**Pənah Xankişiyev,**
**Qarabağ müharibəsi veteranları, əlilləri və şəhid ailələri İctimai Birliyinin sədri**

## İlham Əliyev: "Bizim işimiz haqq işidir!"

(Əvvəli 1-ci səhifədə)

Minlərlə erməni Azərbaycan ərazisində yaşayır. Onlara söz deyən yoxdur, onlar bizim vətəndaşlarımızdır. Ona görə bizim davamız haqq davasıdır. Biz tarixi nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən, ədalət nöqteyi-nəzərdən haqlıyıq. Azərbaycan əsgəri, zabiti öz doğma torpağı uğrunda vuruşur.

Ermənistanın işğalçılıq siyasətini qətiyyətlə pisləyən cənab Prezident qeyd edib ki, Ermənistanın baş naziri bizə qarşı şərtlər qoyur. Bizə qarşı yeddi şərt qoyubdur. Mən bir müddət bundan əvvəl demişdim ki, biz bu şərtləri rədd edirik. Bizim bir şərtimiz var, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olmalıdırlar. Bu şərtim qüvvədədir və əgər bu şərtimə Ermənistan hökuməti əməl edərsə, döyüşlər dayanacaq, qan tökülməyəcək, sülh olacaq, bizim bölgəmizə sülh gələcək.

Görüşdə Cənab İlham Əliyev beynəlxalq təşkilatların, dünya ölkələrinin diqqətinə bir daha çatdırıb ki, biz haqq yolundayıq, döyüşlər Azərbaycan torpağında gedir, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və bizim buna tam haqqımız çatır. Ölkə rəhbəri eyni zamanda xüsusi olaraq vurğulayıb ki, bu günlərdə bizə dəstək olan ölkələri, təşkilatları, insanları heç vaxt unutmayacağıq.

Müalicə olunan hərbçilərə qayğı və diqqətlə yanaşan dövlətimizin başçısı qeyd edib ki, siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız. Eyni zamanda, sizi belə vəziyyətdə görmək mənim üçün, hamımız üçün çox ağırdır. Amma əmin ola bilərsiniz ki, sizin sağlamlığınız üçün nə lazımsa, biz onu da edəcəyik. Bizim bütün xəstəxanalarda, hərbi hospitallarda hazırda müalicə alan hər bir insan xüsusi qayğıya layiqdir və bütün həkimlər, nəinki həkimlər, bizim bütün xalqımız sizə dəstək olmalıdır. Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq. Bir arzumuz var ki, siz tezliklə sağalıb, normal həyata qayıdıb öz şərəfli missiyanızı davam etdirəsiniz. Gənclər üçün siz nümunə olmalısınız, örnək olmalısınız. Azərbaycan xalqı qəhrəman xalqdır ki, sizin kimi övladlar yetişdirib.

Bəli, bu gün hər bir Azərbaycan vətəndaşı öz Lideri ilə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevlə, onun ən yaxın silahdaşı olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə fəxr edir, qürur duyur.

Müasir Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində davamlı uğurlara imza atan ölkəmiz güclü orduya malikdir və qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Azərbaycan xalqı əmindir ki, şanlı ordumuz Ali Baş Komandanın rəhbərliyi altında tezliklə torpaqlarımızı işğaldan azad edəcək.

**Barxudar Barxudarov,**
**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecin direktoru, filologiya üzrə fəlsəfə doktoru**

## Siyasi partiyalar ümummilli mənafe uğrunda birləşməlidirlər



**İşğal olunmuş ərazilərimizin erməni qəsbkarlarından azad olunması uğrunda milli birliyimizin tarixi-siyasi mərhələsi həm də siyasi birliyimizin zəruriliyini gündəmə gətirmişdir. Siyasi həmrəylik milli həmrəyliyin cox mühüm komponentidir. Bu gün ölkəmizdə fəaliyyət göstərən 52 siyasi partiyanın 50-nin birgə bəyanatı Azərbaycanda xalq-dövlət həmrəyliyi ilə yanaşı siyasi təfəkkürün formalaşmasından xəbər verir.**

Siyasi partiyaların rəhbərləri birgə bəyanatında Ermənistanın işğalçı siyasətini şiddətlə qınamış, mülki əhalinin yaşadığı kəndlərin bombalanması faktına münasibət bildirərkən bu faktı insanlığa qarşı cinayət kimi qiymətləndirmişlər. Müsbət haldır ki, Ermənistanın 30 ilə yaxın bir müddət ərzində beynəlxalq normalara məhəl qoymadığını yada salan siyasi partiyaların rəhbərləri, Azərbaycana qarşı tətbiq olunan ikili standartlarına son qoyulmasını tələb ediblər. Məlumdur ki, Ermənistanın siyasi elitasının məsuliyyətsiz bəyanatları Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini mümkünsüz etmiş, təcavüzün əhatəsinin genişlənməsinə şərait yaratmışdır. Siyasi partiyaların rəhbərləri dövlət başçısının bu əsasda dünya dövlətlərin qarşısında söylədiyi fikirləri dəstəkləmiş və status-kvonun dəyişməz qalmasının mümkünsüz olduğunu bildirmişlər. Prezident İlham Əliyevin münaqişənin həlli ilə bağlı xüsusi konseptual baxışları xalqın yekdil fikirləri ilə öz legitimliyini göstərir. Odur ki, siyasi partiya rəhbərlərinin öz birgə bəyanatında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin: "Bizim Ermənistan torpağında siyasi və hərbi maraqlarımız yoxdur" - fikrini sitat gətirməsi Azərbaycanın ədalətli mövqeyinin haqq işinin dəstəklənməsi kimi qiymətləndirilməlidir. Azərbaycan xalqının və ölkənin siyasi partiyalarının yekdilliklə Prezidentin yanında olması həm də onu deməyə əsas verir ki, ölkəmizdə siyasi müstəvidə etibarlı və peşəkar münasibətlərin qurulması üçün münbit zəmin yaradılmışdır. Çünki bu siyasət sübut etdi ki, Azərbaycanın haqq və ədalətli mövqeyi şəxsi ambisiyalardan imtina etməyi və milli maraqlar naminə vahid qüvvə kimi çıxış etməyi tələb edir. Tarixi ədalət və haqq uğrunda aparılan müharibədə xalq iqtidar və müxalifət cəbhələrinə bölünməz, bunu etmək istəyən qüvvələr isə düşmənin yanında duranlardır.

Təəssüf hissi ilə deyilməlidir ki, bu gün Vətən müharibəsinə etinasız qalan Müsavat və Azərbaycan Xalq Cəbhəsi partiyaları ümummilli dəyərlərə sahib çıxmayaraq, bu gün də siyasi ədavət saxlamaq yolu tutmuşlar. Belə tarixi məqamda siyasi dialoq çağırışlarına cavab verməyən siyasi partiyalar beşinci kolonu təmsil edir. Prezident İlham Əliyevin son zamanlarda həyata keçirdiyi islahatları görməyən, daxili ictimai-siyasi həyata yeni nəfəs verən siyasi dialoq çağırışına cavab verməyən Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyasının dövlətimizin və xalqımızın çətin və şərəfli günündə birlik və bərabərlik kimi milli çağırışlara qoşulmamaları haqlı olaraq dərin təəssüf hissi doğurur.

**Aynur Fərzəliyeva,**
**Şirvan şəhər Heydər Əliyev Mərkəzinin direktoru**

## Yüksək döyüş ruhu və əzmkarlıq bizə qələbə qazandıracaq



**Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşmüşdür.**

İlk olaraq hərbçiləri göstərdikləri şücaətə görə təbrik edən Ali Baş Komandan bildirib ki, verilən məlumata görə, bizim bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşını davam etdirsinlər. Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma torpaqlarına qayıdacaqdır.

Ömürdən pay verərlər, torpaqdan pay olmaz deyən xalqımız bu gün ərazi bütövlüyümüzün bərpası uğrunda son damla qanınadək mübarizə aparır və Azərbaycan üçün sipər olmağa hər bir vətəndaşımız hazırdır! Bu gün Azərbaycan Ordusunda çox yüksək əhval-ruhiyyə var. Şanlı Ordumuz zəfərdən-zəfərə doğru inamla irəliləyir. Əhali arasında da ruh yüksəkliyi müşahidə edilir. Hamımız başa düşürük ki, bu problemi birdəfəlik həll etmək lazımdır. Bu müharibədə qalib olacağımıza heç kimdə şübhə yoxdur. Çünki biz haqlıyıq. Ali Baş Komandanımızın dediyi kimi biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Artıq torpaqlarımızda öz bayrağımızı sancmışıq və bundan sonra bu torpaqlardan bizi heç kim çıxara bilməz. Ona görə erməni xalqı bunu anlamalıdır. Anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır. Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik.

Hazırda hər kəs Ordumuzun yanındadır, kimliyindən, tutduğu vəzifədən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının ürəyi ordu ilə döyünür, hamı bir nəfər kimi Azərbaycan əsgərinə dəstək olmağı özünə müqəddəs amal bilir. Əldə olunmuş uğurlar, işğaldan azad edilən ərazilərimiz, Ordumuzun şücaəti və xalqımızda Ali Baş Komandana və Orduma olan inam bir daha onu deməyə əsas verir ki, zəfər bizimlədir! Tezliklə bütün xalqımız Böyük Qələbəni bayram edəcək!

Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**Əziz Abbasov,**
**Sabirabad Regional Mədəniyyət İdarəsinin rəis müavini**

# 1 OKTYABR - PROKURORLUQ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜDÜR

**102 illik şanlı tarixə malik olan Azərbaycanın prokurorluq orqanları bu dövr ərzində çətin, lakin şərəfli bir yol keçmiş, ədalətə və qanuna xidmət göstərmişdir. Milli prokurorluq orqanlarının əsası 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlaması ilə qoyulmuşdur. Lakin bu təsisatın dünya standartlarına uyğun, demokratik cəmiyyətdə özünəməxsus yeri olan və müasir tələblərə cavab verən orqan kimi formalaşması, dövlət idarəetməsində mühüm rola malik olması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamına əsasən hər il oktyabr ayının 1-i Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı kimi qeyd olunur. Peşə bayramı gününün təsis edilməsi prokurorluq orqanlarına dövlət qayğısının ifadəsi olmaqla yanaşı, prokurorluq işçilərinin fəaliyyətinə yüksək dəyər verilməsinin təzühürüdür.**

Ulu öndərin şəxsi təşəbbüsü və rəhbərliyi ilə 1998-ci ildə respublikamızda ilk dəfə olaraq prokurorluq orqanlarının yaradılmasına həsr olunmuş geniş yubiley tədbiri təntənəli şəkildə qeyd edilmişdir. Prokurorluq orqanlarının yaradılmasının 80 illiyinə həsr olunmuş 28 noyabr 1998-ci il tarixli tədbirdə ümummilli lider dərin məzmunlu nitq söyləyərək prokurorluq işçilərinə dəyərli tövsiyələrini vermişdir: «Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız». Bu müdrik sözlər prokurorluq işçilərində böyük ruh yüksəkliyi və iftixar hissi yaratmaqla yanaşı, onlardan öz fəaliyyətlərində daha tələbkar və məsuliyyətli olmağı tələb edir Ümummilli liderin bu sözləri prokurorluq işçilərinin gündəlik fəaliyyət şüarına çevrilmişdir.

Görkəmli bir siyasi xadim kimi öz zəngin dövlətçilik fəaliyyəti ilə Azərbaycan tarixində yeni bir dövrün əsasını qoyan Heydər Əliyevin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, o zəngin idarəçilik məktəbi yaratmaqla, neçə-neçə nəsilə bu məktəbdən, onun siyasi irsindən



bəhrələnməsi üçün böyük imkanlar vermişdir. Çox qanunauyğun və obyektiv reallıqdan doğan bir haldır ki, bu gün Azərbaycan xalqına ulu öndərin həmin dövlət idarəçiliyi məktəbinin əsaslarını dərindən mənimsəmiş xalqına xidməti həyat amalına çevirmiş İlham Əliyev kimi müdrik bir siyasətçi rəhbərlik edir və o, Heydər Əliyev siyasətinə sadiqliyini öz dövlətçilik tədbirləri ilə əyani şəkildə sübuta yetirmişdir. Ulu öndərin yaratdığı möhkəm təməl və idarəçilik prinsipləri əsasında möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanı sürətli və davamlı inkişaf yoluna çıxarmaqla bu siyasi kursun ən layiqli davamçısı olduğunu əyani şəkildə bütün dünyaya nümayiş etdirmişdir.

Hər bir prokurorluq əməkdaşında qürur hissi doğuran haldır ki, Heydər Əliyev siyasi kursunu və strateji inkişaf konsepsiyasını uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən prokurorluğun fəaliyyətinin dünya standartları səviyyəsində təkmilləşdirilərək, ən yüksək beynəlxalq tələblərə uyğun formalaşdırılması prosesi həyata keçirilməklə, prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqət göstərilir. Prokurorluq orqanlarının müasir dövrün tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsində Prezident İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı» xüsusi əhəmiyyətə malik olmuşdur. Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə



dövrünün əsasını qoyan dövlət proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş infomrasiya-kommunikasiya sisteminin yaradılması, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün hərtərəfli zəmin yaratmışdır.

Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında struktur dəyişikliyi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması istiqamətində qısa müddət ərzində kifayət qədər işlər həyata keçirilmişdir. Dövlətimizin yüksək inam və etimadına layiq şəkildə fəaliyyət göstərməyə çalışan Azərbaycan Respublikası Prokurorluğunun tərkib hissəsi kimi Şirvan şəhər prokurorluğu da üzərinə düşən vəzifələri yüksək məsuliyyət hissi və prinsipiallıq şəraitində həyata keçirməkdədir. Şəhər prokurorluğu Azərbaycan Respublikası Konstitusiyası və qanunlarını, «Prokurorluq haqqında» Qanunu, habelə dövlət başçısı cənab İlham Əliyevin mühüm sərəncam,fərman və göstərişlərindən irəli gələn məsələləri rəhbər tuturaq, qanunçuluğun təminatı və hüquq qaydalarının möhkəmləndirilməsi xəttinin uğurla həyata keçirilməsi prosesinə töhfə verməyə çalışır. Qanunçuluğun möhkəmləndirilməsi, hüquq pozuntularına qarşı mübarizənin gücləndirilməsi, cinayətkarlıqla mübarizə tədbirlərinin daha səmərəli təşkili vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, eləcə də hüquqi maarifləndirilməsi hər bir zaman olduğu kimi bu gün də fəaliyyətimizin prioritet istiqamətlərindəndir. Cinayətkarlığa, ilk növbədə, ağır və xüsusilə ağır cinayətlərə qarşı daha kəsərli mübarizənin təşkili ilə əlaqədar şəhərin hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən məqsədyönlü qabaqlayıcı tədbirlər nəticəsində son illər bu sahədə müsbət iş göstəricilərinə nail olunmuşdur.

Dövlət başçısının siyasi iradəsinin ifadəsi olaraq qəbul edilmiş, dövlət orqanları ilə ictimaiyyətin səylərini birləşdirən «Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı», «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli strategiya» və onun həyata keçirilməsi ilə bağlı Milli Fəaliyyət Planları korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədilə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün hüquqi zəmin yaratmışdır. Bununla da respublikamızda dünya standartlarının tələblərinə cavab verən qanunvericilik bazası formalaşdırılmış, Azərbaycan Respublikası Cinayət məcəlləsinə korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə bir sıra əlavə dəyişikliklər edilmiş, korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşdırılmış qurum-Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə baş İdarəsinin strukturu və fəaliyyəti təkmilləşdirilmiş, beynəlxalq əməkdaşlıq inkişaf etdirilərək digər dövlətlərin hüquq-mühafizə orqanları və ixtisaslaşdırılmış antikorrupsiya qurumları ilə əməkdaşlıq əlaqələri qurulmuş, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır.

Prokurorluğun kollektivi dövlətimizin başçısı möhtərəm Prezidentimiz İlham Əliyev və baş prokurorun rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsində, prokurorluğun fəaliyyətinin müasir dövrün standartlarına uyğun yeni keyfiyyət səviyyəsində qurulması istiqamətində səylərini daha da artıraraq qanun pozuntularına qarşı mübarizənin gücləndirilməsində, xalqına xidmətdə, insan hüquq və azadlıqlarının müdafiəsində, ictimai-siyasi sabitliyin, əmin-amanlığın və dövlətçiliyimizin qorunmasında bundan sonra da üzərinə düşən bütün zəruri tədbirləri məsuliyyətlə həyata keçirəcəkdir.

Azərbaycan Respublikası Prokurorluğu orqanlarının yaradılmasının 102 illiyi və 01 oktyabr-prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Azərbaycan Respublikası Prokurorluq işçilərini təbrik edir, xidməti fəaliyyətlərində və şəxsi həyatlarında yalnız uğurlar və xoş günlər diləyirəm.

**Fuad MƏMMƏDOV,**
**Şirvan şəhər prokuroru**
**baş ədliyyə müşaviri**

# BU TORPAQ BİZİMDİR, BİZİM DƏ OLACAQ

**Yaradanın mənə bəxş etdiyi ömrü yaşayıram. Bəxtimə, talehimə idman sahəsində çalışmaq düşüb. Bu sahədəki uğurlarım, nailiyyətlərim barədə çox danışmaq niyyətindən uzağam. Çünki mən bu şəhərdə doğulub böyümüşəm. Yeniyetməliyim, gəncliyim, elə elə bu günlərim də sakinlərimizin gözləri qaraşısında keçib.**

12 yaşımdan güləşlə məşğul olmuşam. Çox şəhərlər, rayonlar, respublikalar gəzmişəm. Döşək üzərində rəqiblərim də müxtəlif millətlərin nümayəndələri olub. İdmanda çox şey olur. Qələbələr, məğlubiyyətlərlə də rastlaşırsan. Əsl idmançı güclü rəqibinin uğuruna sevinməyi, ondan öyrənməyi bacarmalıdır.

Dedim ki, çox yerlərdə, çox yarışlarda iştirak etmişəm. Xankəndində keçirilən yarışlara narahatlıqla gedərdik. Buradakı erməni azarkeşlər həmşəhərlilərinin uduzmasını qəbul etməzdilər. Gah hakimə etiraz edər, gah da yerisz səs-küy salardılar. Əsl həqiqəti qəbul etməzdilər. Açığı kinkidurət bilməyən biz azərbaycanlılar öz torpağımızın vətəndaşları olan ermənilərin bu haqsız hərəkətlərini adi çılğınlıq kimi qəbul edərdik. Fikirləşirdik ki, bu hisslər ötəridir. Lakin 1980-cı illərin sonlarından Azərbay-



cana haqsız ərazi iddiaları irəli sürən ermənilərin kim olduğunu başa düşdük. 30 ilə yaxındır ki, torpaqlarımızın 20 faizini işğal edən ermənilər həyasızcasına bəd əməllərindən əl çəkmirlər. Dövlətimizin başçısı qan tökülməmək üçün uzun illərdir ki, sülh danışıqlarına üstünlük verib. Təəssüf ki, ocağımızın başında yer verdiyimiz bu nankor qonşularımız havadarlarına arxayın olaraq torpaq iddialarından əl çəkmir, başqa ərazilərimizə də göz dikirlər.

2016-cı ilin Aprel döyüşlərində ordumuz düşmənə yaxşı «dərs» verdi. Lakin bu da onları bəd əməllərindən çəkindirmədi.

Sentyabrın 27-i. Düşmən yenidən dinc əhalini, yaşayış rayonlarını top, artilleriya atəşinə tutdu.Ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev silahlı qüvvələrimizə əks-hücüm əmri verdi. Yenilməz ordumuzun mərd oğulları Vətən müharibəsinə başladılar. Düşmən bir neçə gün ərzində Azərbaycan əsgərinin nəyə qadir olduğunu gördü. Artıq neçə-neçə strateji, hakim əhəmiyyətli mövqelər , ərazilər yağıdan təmizlənmişdir. Döyüşlər ordumuz tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Xalq Prezidentinə, Prezident xalqına arxadır. Xalq ordusuna, ordu xalqına inanır. Müasir döyüş texnikası ilə silahlanmş Milli Ordu əsgərlərinin tez vaxtda bütün işğal altında olan torpaqları azad edəcəyinə inanırıq.

Allah sizi qorusun cənab Prezident! Qoluna qüvvət Azərbaycan əsgəri!

**İsmayıl HƏŞİMOV,**
**Azərbaycan Respublikasının**
**Əməkdar məşqçisi,**
**Əməkdar Bədən**
**tərbiyəsi və idman xadimi,**
**sərbəst güləş üzrə**
**SSRİ idman ustası**



Yaqub SALMAN

## AZƏRBAYCAN ORDUSU

Ərşə çıxıb yuxumuz
Yurda düşmən girəli.
Durma, qisas vaxtıdır,
İrəli!
Hey irəli!
Azərbaycan Ordusu.

Çıxış yolu axtarır,
Düşmən qalıb müntəzir.
Sinəsində ürək yox,
Azadlıq eşqi gəzir
Azərbaycan Ordusu.

Bura savaş meydanı,
Atəş, atəş dalınca.
Yer döşək, bulud yorğan,
Baş qoyulmaz balınca.
Dayanmaz yarıb keçər
Olsa dərə-təpə, su
Azərbaycan Ordusu.

Gecəni yatmaq nədi,
Gecə də gündüz kimi.
Səngər olub əsgərə
Tikan kimi, buz kimi.
Sücaətin önündə
Aşırımlar düz kimi,
Azərbaycan Ordusu.

Mənim qəhrəman ordum
Çaylar kimi çağladıb.
Əhvalımı coşdurur.
Atəş quduz düşmənin
Gözünü qamaşdırır.
Qorxaq, murdar ordunun
Əlhəmini çaşdırır
Azərbaycan Ordusu.

İgid Mübariz kimi
Əhlihalı olanın,
Polad Həşimov kimi
Generalı olanın
Pozularmı halı heç,
Yaxşı bilir düşmənin
Davası heç, qalı heç,
Azərbaycan Ordusu.

Humanist görünsə də,
Qızdı, görmə üzünü.
Qüdrətə bax, gücə bax,
Nə sanıbdı özünü.
Yuxusu, dincliyi yox,
Hardan alıb dözümü
Azərbaycan Ordusu.

Kiməsə güvənmirsə,
Burda düşmən yanılır.
Taptaq altında qalan
Torpağımız alınır.
Sözüm qarı düşmənə
Zarafat gəlir, nədir.
Qələbə biizmlədir,
Azərbaycan Ordusu.

ŞİRVAN MƏTBUATI - 90

# QƏZETLƏRİMİZİN REDAKTORLARI

## 6. Möhsüm Xəlilov, Əməkdar jurnalist



**Möhsüm Miriş oğlu Xəlilov 1935-ci ildə keçmiş Əli Bayramlıda (indiki Şirvan) anadan olmuşdur. 1959-cu ildə indiki Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Şəhərimizdə bu sahədə ilk ali təhsili jurnalistlərimizdəndir. «Kommunizm yolu» (Qazıməmməd), «Yüksəliş uğrunda» (Əli Bayramlı) qəzetlərində ilk qələm təcrübəsi keçmişdir. 1962-ci ildə Sabirabadda rayonlararası «Muğan» qəzetində məsul katib vəzifəsində çalışmışdır.**

1965-ci ildə şəhərimizdə nəşrinə başlayan «İŞIQ» qəzetinə redaktor vəzifəsinə təyin olunmuşdur. 1973-76-cı illərdə Əli Bayramlı şəhər Partiya Komitəsinin ikinci katibi, 1976-cı ildən 1988-ci ilə kimi «İŞIQ»da redaktor müavini vəzifələrində işləmişdir. 1988-ci ildə yenidən «İŞIQ» qəzetinə redaktor vəzifəsinə təyin edilmişdir. 2017-ci ilə kimi bu vəzifəni daşımışdır. Şəhər «Ziyalılar» cəmiyyətinin sədri, şəhər Ağsaqqallar Şurasının üzvüdür.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü, respublikanın Əməkdar jurnalistidir.

Şirvan şəhərində Möhsüm müəllim haqqında kimdən soruşsanız «əsl ağsaqqal»dır cavabını alacaqsınız. Möhsüm müəllim hörmət- izzəti, ağsaqqal adını illərlə qətrə-qətrə toplayıb. Əməli, işi, savadı ilə elin-obanın, onu tanıyan əksəriyyətin rəğbətini, məhəbbətini qazanıb. O təkcə öz ailəsinin, əzizlərinin deyil, uzun illər başçılıq etdiyi jurnalist kollektivinin, doğulub boya-başa çatdığı, yaşadığı şəhərin ağsaqqalı, ən çox hörmət edilən ziyalısıdır. Bəli, Möhsüm müəllim öz ailəsinin, mətbuatımızın, şəhərimizin ağsaqqalıdır.

Yaxşı xatırlayıram. 1980-cı illərin sonları idi. Dağlıq Qarabağ ətrafında hadisələr gündən-günə kəskinləşirdi. Vətən torpağının hər qarışı üçün canından keçməyə hazır olan oğullar ov tüfəngi ilə də olsa silahlanıb düşmən qarşısına çıxmışdılar. Belə günlərdə onların maddi və mənəvi dayağa ehtiyacları böyük idi. Vətənpərvər oğullara ərzaq və digər sursat aparan maşınlarla kimin gedəcəyi götür-qoy edilərkən Möhsüm müəllim məsləhət bilindi. Bu asan məsələ deyildi. Kəlbəcərə gedən yol qana susamış ermənilərin sıx yerləşdikləri Ağdərə rayonundan keçirdi. Möhsüm müəllim bir neçə vətənpərvərlə Kəlbəcərə yola düşdü. Gecənin qatı qaranlığında Ağdərəni keçib Kəlbəcərə çatdılar. O illərdə Kəlbəcər Rayon Partiya Komitəsinin birinci katibi işləyən, millət vəkili, vaxtilə «İŞIQ»ın redaktoru olmuş mərhum Zahid İsmayılov narahatlığını gizlətməyib ərkyana Möhsüm müəllimi məzəmmət etmişdi. «Ağdərə bu dəqiqə qan çanağıdır. Ehtiyatsızlıq etmisiniz» - deyir. Möhsüm müəllimin sözü bu olmuşdu:

-Düşmənlə üz-üzə dayanan, risk edən balalarımızdan artıq deyilik.

Sonralar da Möhsüm müəllim teztez cəbhə bölgələrində olur, əsgərlər qarşısında çıxışlar edir, onları qələbəyə ruhlandırırdı.

Möhsüm müəllim mətbuatımızın ağsaqqalıdır. Ali təhsil alıb təyinatla keçmiş Əli Bayramlıya (indiki Şirvan şəhəri) gəldiyi gündən bir həftə belə işsiz qalmayıb. Çətin sahə olan qəzetçilikdə öz sözünü deyib. Onlarla gənc jurnalistikanın sirlərini məhz Möhsüm müəllimdən öyrənib. Əməkdar jurnalist Tofiq Hüseynov, mərhum Səxavət Qarayev, Vaqif Abbasov, Fəxrəddin Rəhimov, Rafiq Mahmudov, Nizami Rəhimov və başqaları jurnalist kimi yetişdikləri üçün Möhsüm müəllimə minnətdardırlar.

Möhsüm müəllim hər şeydən əvvəl sadə insandır, yüksək intellektual səviyyəyə malik ziyalıdır. Onun söhbələri mənalı, tərbiyəedici olur. Ona görə də o həmişə maraqla, diqqətlə dinlənilir.

O, səmimi yoldaşdır. Başçılıq etdiyi kollektiv üçün işgüzar şərait, sərbəst hərəkət etmək üçün imkan yaratmağı bacarırdı. Bu isə yaradıcı kollektivdə xüsusi amillərdən biridir. Möhsüm müəllim həyatda özündən asılı olmayan xoşagəlməz hadisələrlə rastlaşanda soyuqqanlı olmağı bacarır. Başqasına da bu keyfiyyətləri təlqin edir.

Möhsüm müəllim həyatda haqsızlıqlarla, çətinliklərlə də az rastlaşmayıb. Amma heç vaxt qürurunu sındırmayıb, əqidəcə, cəsarətcə ondan qat-qat aşağı olan yüksək vəzifə sahibləri qarşısında əyilməyib.

Gözü, könlü tox olub Möhsüm müəllimin. Uşaq da böyük də, vəzifəli, vəzifəsiz şəxslər də ona hörmət, izzətlə yanaşırlar.

Belə ağsaqqalllara həmişə ehtiyacımız var. Allah-təaladan ona uzun ömür, cansağlığı arzulayırıq.

**F.RƏHİMOV**



*1970-ci illərin yadigarı olan bu şəkili «İŞIQ»ın mərhum foto-müxbiri Kamal Kərimov lentə almışdır. Şəkildə (soldan) «İŞIQ»ın əməkdaşları- mərhum Tapdıq Xudayev, Möhsüm Xəlilov, mərhum Səxavət Qarayev, Tofiq Hüseynov, ayaqüstə duranlar Fəxrəddin Rəhimov, mərhum Xudaverdi Gəncəliyev.*

Hər gün bir yenilik

# SAĞLAM DÜŞÜNCƏNİN BƏHRƏSİ

**Mən ömrümün qocalıq çağlarını yaşayıram. Yeni kimdənsə vəzifə, maddi yardım uman vaxtım deyil. Bu yazını obyektivlik xatirinə yazıram. Şəhərin mərkəzində, ulu öndər Heydər Əliyevin abidəsinin 70-80 metrliyindəki Energetik küçəsi 9 nömrəli binanın ətrafında ciddi abadlıq-quruculuq işlərinə ehtiyac vardı. O günləri narahatlıqla gözləyirdik.**

Bir gün şəhərimizə yeni təyin olunmuş icra başçısı İlqar Abbasovu binamızın qarşısında gördüm. O həyətdə hər şeyə diqqətlə baxır, memara nəsə deyirdi

Cari ilin ikinci yarısında burada yeni layihə əsasında yeni işlərə başlanıldı. Avqustun əvvəlləri-burada aparılan işlərin qaynar çağında axşam üstü evə tələsirdim. Bir cavan oğlan qarşıma çıxıb(özünü müxbir kimi təqdim etdi) şəhərdə aparılan abadlıq-quruculuq işləri və təzə başçımızın fəaliyyəti barədə məndən müsahibə aldı. İki gün sonra Moskvada yaşayan qızım zəng edib mənə lakonik müsahibəyə görə təşəkkürünü bildirdi. Şəhərimizdə aparılan ürəkaçan işlərə görə sevindiyini söylədi. Anladım ki, internet qanad açıb, uzaq ölkələri dolaşa bilir. Ona bildirdim ki, mən görülən işlərdən danışmışam

25 sentyabr.Axşamın qaranlığı ətrafa hakim kəsiləndə bir anda məhəllə aydınlığa qərq oldu. Bununla da məhəllənin uzun illər davam edən qaranlığına son qoyuldu. Beş binanı sakinləri- (iki yüzə yaxın ailə) eyvanlara çıxan kim, aşağı düşüb gözəlliyi, həyət işıqlarının yanmasının həvəslə seyr edən kim. Hamı sevinc içində idi. Elə bu an ahıl bir ana astadan dodaqaltı deyirdi:

-Bizi sevindirəni Allah sevindirsin!

Tək binamızın qarşısında yox, taa dəmir yoluna qədər uzanan böyük bir sahədə görülən fundamental işlər barədə yazmaq fikrindən uzağam. Demək istəyirəm ki, yaxın günlərdə, yeni işlər tam başa çatandan sonra məhəlləmizə gəlin. Burada abadlanlara tamaşa edib onu yaradanlara alqış söyləyəcəksiniz.

Şəhərimizdə aparılan abadlıq-quruculuq işləri bununla qurtarmır. Yeraltı keçidin bərpasına başlanması, M.Füzuli adına parkdakı yenidənqurma işləri hamını sevindirir. Uzun illərdir ki, bərbad vəziyyətə düşən « Ana» abidəsi və onun ətrafında yenidənqurma işləri sürətlə aparılır.

Şirvan şəhər Ticarət Mərkəzində alış-veriş sahəsində yerlərin yenidən qurulması şəhər sakinlərinin ürəyindəndir.

Şirvanda aparılan abadlıq-quruculuq işlərindən ruhlanaraq hisslərimi bu şeirlə yekunlaşdırıram.

**Süfrə açıq, ürək asıq, əl açıq,**
**Hörməti var hər ğələnə yaxşının**
**Yaxşı görür görülməyən işləri,**
**Gözlərinə nur ələnə yaxşının.**

**Həyat onu zaman-zaman döyrədi,**
**Hər kəs ona «ögey bina» deyərdi.**
**Quruyurdu, su səpdilər, göyərdi,**
**Balaları şaxələnə yaxşının.**

**Yaxşı kişi yaxşı işə yanaşar,**
**Yaxşılığın zirvəsini tam aşar.**
**Görülən iş tamaşadır-tamaşa,**
**Yaqub Salman al qələmə yaxşının.**

**Yaqub SALMAN**
**şair-publisist**

TƏKLİF

# STADİONUN TİKİNTİSİNDƏ SON İŞLƏR BAŞA ÇATSA...

**Son illərdə ölkə, istərsə də şəhərimizin idman sahəsinə nəzər saldıqda həm aşağı, həm də yuxarı yaş qruplarında dinamik inkişafın şahidi oluruq. Onlar güləş, cüdo, taekvando, boks, sambo, ağır və yüngül atletika və digər sahələrdə uğur qazanırlar.**

Ötən illər Bakının «Neftçi», son illərdə isə Ağdamın «Qarabağ» futbol klubu ölkəmizi uğurla təmsil etmişdir. «Qarabağ» klubu ölkə daxili çempionatda uğurlar qazanmış, həmçinin Avropa arenasında ölkəmizi tanıtmışdır. Bu da ölkə futbolumuzun bilavasitə inkişafı üçün təkan rolunu oynayır. Hazırda futbol üzrə milli çempionatda və 1-ci liqada futbol klubları daxili çempionatlarda yarışmaqdadır. Əsas hədəf isə ölkə futbolunu inkişaf etdirmək və bunun üçün güclü zəmin yaratmaqdır.

İllər keçdikcə çiçəklənən, böyüyən və inkişaf edən Şirvanda da idman sahəsində mühüm tədbirlər görülməkdədir. Şirvan Olimpiya İdman Komleksi və «Neftçi» İdman və Sağlamlıq Mərkəzi şəhərimizdə idmançılar üçün mühüm baza rolunu oynayır. Burada məşq və təlimlər keçən idmançılarımız ölkədaxili və həmçinin xarici yarışlarda ölkəmizi uğurla təmsil edirlər.

Şəhərimizin futbol tarixini vərəqləyərkən qürurverici faktlarla rastlaşırıq. Amma 1960-cı illərin futbolu daha



yadda qalandır. 1962-ci ildən şəhərimizdə futbol idman növü sürətlə inkişaf etdirilməyə başlanılmışdır. Bundan sonra burada onlarla tanınmış futbolçular yetişmişdir, respublikanın yığma komandasının tərkibində ölkəmizin idman şərəfini qorumuşlar.

Şirvanın futbol komandası 1962-ci ildə «Neftçi» 1975-ci ildə «Energetik» adı ilə fəaliyyət göstərmişdir. 1980-cı ildə «Energetik» Azərbaycan çempionatının qalibi olmuş, respublika kubokunu qazanmışdır.

1992-ci ildə ilk milli çempionatda iştirak etmiş komandamız debüt edib yaxşı nəticə göstərməyə çalışsa da 26 komanda arasında 22-ci yeri tutaraq aşağı liqaya düşdü. Sonrakı 3 il ərzində 1-ci liqada mübarizə aparan klubun ən yaxşı nəticəsi 1993-cü ildə 4-cü yer oldu. 1995-ci ildə isə klub maddi çətinliklərə görə fəaliyyətini dayandırdı.

Bu gün əsas vacib məsələlərdən biri futbolumuzun itmiş şöhrətini qaytarmaqdır. Bunun üçün imkanlarımız var. Təəssüf ki, bu arzumuzun həyata keçməsinə mane olan amil də var. Bir neçə il öncəsi şəhərimizdə stadion tikintisinə başlandı. Burada işlər yarımçıq qaldı. Həmin stadionun tikintisi, daha doğrusu son tamamlama işləri başa çatdırılsa bu futbolsevərlərin ürəyindən olar. Məşqlərə başlanar, futbolumuz yenidən dirçələr.

**Musa MƏMMƏDLİ,**
**şəhər sakini**

# BUNLARI BİLİRSİNİZMİ?

Yeni doğulan kenqurunun çəkisi 1 qramdan da yüngül olur. Üstəlik nə görə, nə də eşidə bilir.

Konservaçan alətlər konservlər istehsal olunduqdan 48 il sonra kəşf edilmişdir.

İlk elektron poçt 1972-ci ildə Ray Tomlinson tərəfindən göndərilmişdir. «@»İşarəsindən də ilk dəfə o, istifadə etmişdir.

Bir insan ürəyi ömrü boyu orta hesabla 500 milyon litr qan ötürür.

İnsan dünyaya gələrkən bədənində 300 sümük olur. Böyüyəndə isə bu sümüklərin sayı 206-ya düşür.

Hər 4 amerikalıdan biri mütləq televiziya ekranında görünür.

**Topladı: Əziz NƏSİBLİ**

Baş redaktor: F.N.RƏHİMOV

*Təsisçilər:* Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650